İPƏK YOLU, No.4, 2024, səh.120-124
https://doi.org/10.30546/1810-911X.2024.4.129

# MƏHƏMMƏD FÜZULİ LİRİKASINDA "SU" POETİK OBRAZI

**Aynur Həsənova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aynur.hasanova@au.edu.az

**Xülasə.** Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yaradıcılığında çoxsaylı poetik obrazlar sırasında "su" rəmzi məzmunu ilə xüsusən fərqlənir və önəmli yer tutur. Şairin həm lirik, həm də epik irsində bu obraza daha böyük məhəbbətlə müraciət olunduğunun şahidi oluruq. Sənətkar öz yaradıcı potensialını səfərbər edərək "su"ya fərqli məna çalarları qazandırır, bununla da ədəbi-bədii dilimizin zənginləşməsinə mühüm imkanlar açır. Məqalədə göstərilir ki, Füzuli özündən əvvəlki ənənəni daha da kamilləşdirərək "su" poetik obrazının fərqli fəlsəfi anlamları ifadə etməsi üçün müxtəlif bədii konstruksiyalar qurur və özündən sonra gələn ədiblər üçün bir istiqamət müəyyənləşdirir.

**Açar sözlər:** Füzuli, poetik obraz, su, rəmz, məcaz, üslubi-poetik fiqur.

**"WATER" POETIC IMAGE IN THE LYRICS OF MUHAMMAD FUZULI**

**Aynur Hasanova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** Among the numerous poetic images in the work of the genius Azerbaijani poet Muhammad Fuzuli, "water" is particularly distinguished by its symbolic content and occupies an important place. In both lyrical and epic heritage of the poet, we witness that this image is addressed with greater love. By revealing his creative potential, the artist brings different shades of meaning to "water", thereby opening up important opportunities for the enrichment of our literary and artistic language. The paper shoüs that by perfecting the tradition before him, Fuzuli builds various artistic constructions for the poetic image of "water" to express different philosophical meanings and defines a direction for the writers who came after him.
**Keywords:** Fuzuli, poetic image, water, symbol, metaphor, stylistic-poetic figure.

**ПОЭТИЧЕСКИЙ ОБРАЗ "ВОДЫ" В ЛИРИКЕ МУХАММЕДА ФИЗУЛИ**

**Айнур Гасанова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** Среди многочисленных поэтических образов в творчестве гениального азербайджанского поэта Мухаммеда Физули "Вода" особо выделяется своим символическим содержанием и занимает важное место. И в лирическом, и в эпическом наследии поэта мы видим, что к этому образу обращены с большей любовью. Раскрывая свой творческий потенциал, художник придает "Воде" различные смысловые оттенки, открывая тем самым важные возможности для обогащения нашего литературно-художественного языка. Показывается, что совершенствуя предшествующую ему традицию, Физули строит различные художественные конструкции поэтического образа "Воды", выражающие различные философские смыслы, и определяет направление для писателей, пришедших после него.
**Ключевые слова:** Физули, поэтический образ, вода, символ, метафора, стилистико-поэтическая фигура.

## 1. Giriş

Məhəmməd Füzulinin lirikası poetik obrazların zənginliyi baxımından təkcə Azərbaycan və Türk dünyası ədəbiyyatında deyil, ümumən Şərq, o cümlədən dünya söz sənəti xəzinəsində xüsusi seçilir. Onun əsərlərində diqqət çəkən poetik obrazlar sırasında "su" bir rəmz kimi saflığı təcəssüm etdirir. Şair suyu həm dirilik bəxş edən möcüzəvi maye - həyat

mənbəyi, həm də müqəddəs ruhun saflığının maddi timsalı kimi təqdim edir. Füzuli bədii sözün qüdrəti ilə su məfhumunun fəlsəfi mənasını açmağa müvəffəq olur, onun canlı aləmdə hər şeyin məğzində durduğunu nəzərə çatdıra bilir.

Görkəmli füzulişünas alim və tanınmış yazıçı professor Mir Cəlal Paşayev məşhur "Füzuli sənətkarlığı" adlı monoqrafiyasında bu xüsusda belə yazır: *"[Füzuli yaradıcılığında] su özü-özlüyündə, bir su olaraq təbii varlıq kimi təsvir olunmamışdır. Su, bir aşiq kimi, məhəbbət aləminin "başını daşdan-daşa vurub gəzən bir avarəsi" kimi təsvir olunmuşdur"* [1, s.114].

Məsələn, şair bir qəzəlində belə deyir:

*Gövhəridir eşq bəhrinin, Füzuli, abi-çeşm,*
*Leyk bir gövhər ki, lütfi-həq onadır müştəri* [3, s.285].

Bu beytdə müəllif bildirir ki, göz yaşı, yəni saf inci kimi duru olan su eşq dənizinin ən qiymətli gövhəridir. Həm də elə qiymətli gövhərdir ki, uca Yaradanın məqamında çox yüksək dəyərləndirilir.

Beytdə şair müqəddəs Qurani-Kərimin "Ənbiya" surəsinin 30-cu ayəsinə işarət etmiş olur. Həmin ayədə deyilir: *"Biz hər bir canlı varlığı sudan yaratdıq"*. Deməli, bəşər övladının da mayasını su təşkil edir. Uca Yaradanın bizə lütf olaraq əta etdiyi suyun ən qiymətli və ən saf olanı isə göz yaşıdır. Yaradana qovuşmaq eşqi ilə axıdılan göz yaşının isə Allahın dərgahında qiyməti çox yüksəkdir.

Quran bizə öyrədir ki, insan da uca Yaradanın inaəti ilə sudan yaradılmışdır. Bu baxımdan Füzuliyə görə, insanın abi-həyat umması nankorluqdur:

*Ləbin dövründə kim, insan olan can der ona mütləq*
*Əgər abi-həyat etsəm tələb, heyvanlığm vardır* [3, s.129].

Füzuli yaradıcılığında klassik ədəbiyyatda ənənəvi poetik obrazlardan olan gözdən axan yaşa (əşk, abi-çeşm və s.) daha böyük önəm verilir. Özünü *"qəm karvanının sarvanı"* adlandıran dahi şair deyir:

*Hər tərəf əkslərimdir görünən, ya yığılıb*
*Gəldi su xəlqi sirişkim suyu nəzzarəsinə* [3, s.269].

Müəllif burada mübaliğədən istifadə edərək deyir ki, o qədər göz yaşı tökmüşəm, hara baxıram suda əksimi görürəm. Bilmirəm, ətrafımı bürüyən suda üzən mənim əksimdir, yoxsa mənim bu halıma tamaşa etməyə su adamları gəlib.

Füzuliyə görə, göz yaşı insan qəlbini saflaşdıran nəsnədir. Bu haqqa yaxınlaşmaq üçün ödənilən bədəldir. Necə ki, sədəf yağışdan saf su payını almayınca inci yetirə bilmirsə, insan da elədir, qəlbini göz yaşı ilə his-pasdan arındırmayınca saflıq mərtəbəsinə yüksələ bilmir:

*Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,*
*Sədəf su almayınca əbri-nisandan, gövhər verməz* [3, s.152].

Şair gözyaşını*"bəlasər çeşməsi"*ndən axan saf su adlandırır. Həqiqi aşiqin can bağını, yəni könlünü eşqin bəla çeşməsindən axan göz yaşı tutur. Müəllif bu halını məşuqunun işvəlәriilə, onun qəlbinə vurduğu qəmzə oxları ilə əlaqələndirir:

*Gəzən peykanlarındır təndə, ya can bağinə eşqin*

*Bəlasər çeşməsindən hər tərəf sular rəvan etmiş* [3, s.164].

Burada isə müəllif insana məxsus iki halı - fərəh ilə kədəri müqayisə edir və üstünlüyü gözyaşı axıtmağa verir. Çünki Quran-Kərimə görə, "Nəcm" surəsinin 43-cü ayəsində də deyildiyi kimi, ağlatmaq da, güldürməkdə Allahdandır. Yəni *"Güldürəndə, ağladan da odur"*. "Nəhl" surəsinin 111-ci ayəsinə görə də: *"Hərkəsə etdiklərinin əvəzi tam verilər və onlara heç bir haqsızlıq edilməz"*. Və əgər belədirsə, əbədi aləmdə ağlamağının əvəzi fərəh olacaq. Yəni insan əslinə qovuşmaq üçün nə qədər çox göz yaşı tökərsə, bir o qədər çox şans əldə etmiş olar.

Qüdrətli şair sözün fikri ifadə etmək imkanlarından maksimum yararlanaraq deyir:

*Əks ruyin suya salmış sayə, zülfün torpağa,*

*Ənbər etmiş torpağın adın, suyun ismin gülab.* [3, s.66]

Məlumdur ki, təbii mayelərdən ən durusu və daha çox ətirlisi gül suyudur. Müəllif məşuqun əksi suya qarışdığı üçün onun adının "gülab", saçının telinin torpağa düşdüyündən isminin ənbər kimi dəyişdiyini bildirir. Şair bu beytdə irsali-məsəldən yararlanaraq Məhəmməd peyğəmbərin (s.ə.s.) meraca yüksəlməsi ilə bağlı məşhur iki rəvayətə işarə etmiş olur. Deyilənə görə, rəsulullah belə nəql edib: – Mən meraca yüksəldikdə, vücudumdan torpağa bir neçə qətrə tər düşdü. Tər torpağa qarışdığı yerdən qızıl gül bitdi. Digər bir rəvayətə görə isə, *"Peyğəmbər buyurur: "Mən merac gecəsi göylərə gedəndə Cəbrail məni sağ çiynində aparırdı. Mən bir yerə baxdım ki, oranın dağları qırmızı idi və zəfərandan da daha yaxşı idi. Oranın ətri müşk-ənbər iyindən də yaxşı idi. Cəbraildən soruşdum: "Bu zəfərandan da yaxşı rəngli və müşk-ənbərdən də daha ətirli yer haradır?" O dedi: "Bura sənin və vəsin Əlinin tərəfdarlarının ərazisidir"* [2, s.225].

Göründüyü kimi, Füzuli hədislərdə yayqın olan ədəbi faktı mənimsəyərək ona yeni məzmun verir və necə deyərlər, ənənə daxilində novatorluq edir.

Bu məqamda mütləq qeyd etməliyik ki, Füzuli əksər hallarda klassik ədəbiyyatda aktiv istifadə olunan hazır ifadələri heç dəyişmədən, birləşmənin tərəflərini çox vaxt tam sabit saxlayaraq işlədir. Lakin onları konteksdə elə məharətlə istifadə edir ki, bu, onun dövrü üçün yenilik, bizim zamanımız üçün isə sadəlik içində möhtəşəmlik kimi qəbul edilir. Məsələn, şair "Leyli və Məcnun" poemasında Qeysin halını təsvir edərkən yazır:

*Könlüm odu qıldı yanə-yanə*

*Ahəng şəfəqtək asmanə.*

*Yaşım suyu oldu varə-varə*

*Bir bəhr ki, yox ona kənarə* [4, s.64].

İkinci beytdə sənətkar ənənəvi göz yaşının sahilsiz dənizə bənzədilməsi qəlibindən məqsədli istifadə edir, irsali-məsəl üslubi fiqurundan yararlanaraq *"dama-dama göl olar"* xalq məsəlinə də eyham vurmuş olur.

Həmin əsərdə başqa yerlərdə də obrazın nitqində "su" ilə bağlı hazır xalq dili ifadələrindən istifadə edildiyinin və bu poetik obrazın bədii mətn daxilində məharətlə tətbiq edildiyinin şahidi oluruq. Məsələn:

*Olman məni-xəstə ilə həmdəm,*
*Ta batmayasız bu suya siz həm* [4, s.62].

Yaxud,

*Su saldı yoluma əşki-həsrət,*
*Damanımı tutdu xari möhnət* [4, s.71].

Gətirilən nümunələrdə şair "suya batmaq" idiomatik birləşməsindən istifadə edir və "yola çıxanın ardınca su atmaq" inancını xatırlatmış olur.

Məhəmməd Füzulinin "su" obrazından istifadə etdiyi ən məşhur əsəri isə, sözsüz ki, "Su" qəsidəsidir. Əsər Məhəmməd peyğınbərə (s.ə.s.) ithaf olunsa da, burada suyun Yer üzündə həyat mənbəyi olması haqqında fəlsəfi düşüncə müxtəlif çalarlarda, həm də fərqli bədii konstruksiyalar daxilində məharətlə ifadə olunmuşdur.

Bu qəsidə sənətkarlıq baxımından şairin əsərləri içərisində xüsusilə seçilir. Elə əsərin ilk beytinə baxaq:

*Saçma ey göz, əşkdən könlümdəki odlarə su*
*Kim, bu dəklü tutuşan odlarə qılmaz çarə su* [5, s.30].

Göründüyü kimi, şair göz yaşının könlünün odunu söndürə bilməyəcəyini deyir. Dərdlərinin çox olmasına rəğmən gözünə ağlamamağı məsləhət görür. Səbəbin aydınlaşdırılması üslubu fiqurundan istifadə edərək əslində mübaliğənin dərəcəsini artırmış olur.

Müqayisə ilə məşuqun hüsnünün gözəlliyini təqdim etməkdə mahir olan sənətkar aşağıdakı beytdə belə bir bənzətmə edir:

*Suya versin bağiban gülzarı, zəhmət çəkməsin,*
*Bir gül açılmaz üzüntək, versə min gülzarə su* [5, s.31].

Yəni bağban bağı su ilə doldursa da, hətta min belə bağa su versə də, sənin siman kimi bir gül açmaz deyir. Şairin əsas məqsədi isə məşuqun hüsnünün gül tək olmasının diqqətə çatdırılmasıdır. Qızılgülün də təsəvvüfi dünyagörüşə görə rəsulullah ə.s.-ın rəmzi kimi qəbul olunduğu barədə artıq yuxarıda məlumat verdik.

Əsərin başqa bir beytinə nəzər salaq:

*Mən ləbin müştaqiyəm, zöhhad Kövsər talibi,*
*Netəkim məstə mey içmək xoş gəlir, hüşyarə su* [5, s.31].

Şair bu beytdə klassik ənənədən çıxış edərək rind ilə zahidi qarşılaşdırır. Bu qarşılaşdırmada özünü birincilər sırasında görən müəllif rindanələrin ləbin, zöhd əhlinin isə Kövsər suyunun talibi olduğunu bildirir. Sonrakı misrada məst olanlara mey, ayıqlara isə su içməyin xoş gəldiyini deyir. Bununla da birinci misradakı ləb ilə ikinci misradakı meyi tutuşdurmağımızı istəyir. Yəni qırmızı rəngin adını çəkmədən dodağın al olmasına işarə etmiş olur. Eyni məqamda Kövsər ilə suyun qarşı-qarşıya qoyulması isə bunun üçün bir ipucudur.

Bu qəsidədə Füzuli özündən əvvəlki şairlərin ənənələrini davam və inkişaf etdirərək deyir:

*Dəstbusi arizusundan gər ölsəm, dustlər,*

*Kuzə eylin torpağım, sunun onunla yarə su* [5, s.31].

Göründüyü kimi, sənətkar klassik Şərq ədəbiyyatında kuzə və aşiq analogiyasından yaradıcı faydalanır. Şair dostlarından xahiş edir ki, sevgilini öpmək arzusu ilə əgər can versə, torpağa dönmüş bədənindən kuzə hazırlayıb yarına su verməklə ruhunu şad etsinlər.

Növbəti beytdə Füzuli sərv ağacının dik durması kimi əsas əlamətini "sərkəşlik" - məğrurluq kimi təqdim edir:

*Sərv sərkəşlik qılır qümri niyazından, məgər,*

*Damənin duta, əyağinə düşə, yalvarə su* [5, s.31].

Bu beytdə istifadə edilən digər obraz isə qumru quşudur. Məlum olduğu kimi, bu quşun digər adı göyərçin, yaxud çeşmə quşudur. Bu adın da su hövzəsi ilə bağlılığı təsadüfi deyil. Rəvayətə görə, hz. Yusif qardaşları tərəfindən quyuya salındığı zaman qumru quyunun kənarına qonub davamlı oxuyur və yoldan keçən karvanı oraya cəlb edir.

Məlumdur ki, qumru quşu yerişinə görə məğrurluğun rəmzidir, lakin o da suyun önündə baş əyir. Şair demək istəyir ki, sərv kimi məğrur ağacın qarşısında əyilməyən qumru su üçün əyilir.

Beytin ikinci misrasındakı "əyağa düş"mək ifadəsi isə cinasdır. Həm misradakı yalvarmaq sözünün sinonimi, həm də suyun badəyə tökülərək içilməsini bildirən omonimi kimi başa düşülür.

**Nəticə**. Göründüyü kimi, Məhəmməd Füzulinin həm lirik, həm də epik irsində "su" poetik obrazı saflığın, müqəddəsliyin, ülviyyətin rəmzi kimi təqdim olunur. Şair bu rəmzi mənaları ifadə etmək üçün klassik Şərq ədəbiyyatına məxsus ənənəvi bənzətmə sistemlərindən, xalq dili ifadələrindən istifadə edərək yaradıcı şəkildə yararlanır, bədii ədəbiyyatımıza yeni nəfəs gətirərək, ədəbi-bədii dilimizə yeni imkanlar qazandırır. Füzuli şeiriyyətində suyun təbii əlamətləri qeyri-adi tərzdə ifadə edilir. Sərin bulaq kimi çağlayıb axan Füzuli yaradıcılığında "su" həm misli-bərabəri olmayan mühüm təbii nemət, həm də fəlsəfi anlayış olaraq əbədi həyat mənbəyi kimi dərk olunur.

**Ədəbiyyat**

1. Paşayev M.C. (2018), Füzuli sənətkarlığı, Bakı: Çaşıoğlu, 2018, 348.
2. Quliyev İ. (2012), Hədis mənbələrində müqəddəs şəhərlərin tarixi. Bakı: İslam Universiteti, 235.
3. Füzuli M. (2005), Əsərləri. Altı cilddə. I cild. Bakı: Şərq-Qərb, 400.
4. Füzuli M. (2005), Əsərləri. Altı cilddə. II cild. Bakı: Şərq-Qərb, 336.
5. Füzuli M. (2005), Əsərləri. Altı cilddə. IV cild. Bakı: Şərq-Qərb, 344.